# MUSİQİ 1

DƏRSLİK







# Azərbaycan Respublikasının Dövlət Himni

*Musiqisi Üzeyir Hacıbəylinin,*
*sözləri Əhməd Cavadındır.*

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!

Minlərlə can qurban oldu,
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!



**HEYDƏR ƏLİYEV**

**AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ**

NƏRGİZ RƏCƏBOVA
ŞƏHLA QULİYEVA
ZEMFİRA ƏLİYEVA

*Ümumtəhsil məktəblərinin* **1** *-ci sinfi üçün*

# MUSİQİ

*fənni üzrə* **dərslik**

Bu nəşrlə bağlı irad və təkliflərinizi
**info@eastwest.az** və **derslik@edu.gov.az**
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ - QƏRB

# Mündəricat


**I bölmə. Musiqi aləmi**

1. Gözəl Vətən ... 6
2. Musiqili diyar ... 8
3. Musiqinin xarakteri ... 10
4. Marş musiqisi ... 12
5. Tıq-tıq xanımın rəqsi ... 14
6. Mahnı, marş, rəqs ... 16
7. Doğma yurdumuzun musiqisi ... 18
8. Azərbaycan rəqsləri ... 20
9. Musiqili oyunlar ... 22

**II bölmə. Melodiya**

10. Sehrli Melodiya ... 24
11. Musiqi əlifbası ... 26
12. Mahnı deyək, rəqs edək ... 28
13. Musiqi nərdivanı ... 30
14. Bayram şənliyi ... 32

**III bölmə. Ritm**

15. Zərb musiqi alətləri ... 34
16. Ritmik vurğular ... 36
17. Ritmin növləri ... 38

**IV bölmə. Melodiya, ritm və temp**

18. Qonaqpərvər dostlar ... 40
19. Zil və bəm səslər ... 42
20. Qəhrəmanlıq nəğməsi ... 44
21. Əzizim Vətən! ... 46
22. Gəl, gəl, a yaz günləri! ... 48
23. Çal, oyna! ... 50
24. Novruz xonçası ... 52

**V bölmə. Könül açan nəğmələr**

25. Sülh və mübarizlik ... 54
26. Sülhün carçıları ... 56
27. Nəğməli bahar ... 58
28. Gözəl məkan, Azərbaycan! ... 60
29. Gülməli nağıl ... 62
30. Hər birimiz bir çiçək ... 64
31. Güllərin rəqsi ... 66
32. Bayram günü ... 68
33. Uşaqların nəğməli dünyası ... 69
34. Musiqi çələngi ... 70

**Musiqi əsərləri** ... 71




## Musiqi əsərinin dinləmə qaydaları:



Əvvəldən axıra qədər diqqətlə dinləyin.

Dinləyərkən sakitliyə riayət edin.



## Mahnının ifa qaydaları:



Qamətinizi düz saxlayın.

Nəfəsi burunla alın, ağızla yavaş-yavaş verin.



## Fəaliyyətlərin şərti işarələri:


Oxumaq


Dinləmək


Rəqs etmək


Tapşırıq


Lüğət

# I bölmə

# 1. GÖZƏL VƏTƏN










**Azərbaycan Respublikasının Dövlət Himni**

*Musiqisi* Üzeyir Hacıbəylinin, *sözləri* Əhməd Cavadındır.

***Himn*** – hər bir ölkənin əsas və təntənəli mahnısıdır.

***Mahnı*** – oxumaq üçün musiqi əsəridir.

***Bəstəkar*** – musiqi əsərlərinin müəllifidir.




**"Gözəl Vətən"**

*Musiqisi* Oqtay Zülfüqarovun,
*sözləri* Teymur Elçinindir.

**T 1** İfa qaydalarına riayət edərək mahnının birinci hissəsini oxuyun.

**T 2** Bəstəkarların portretləri ilə mahnıların şərti şəkillərini uyğunlaşdırın və xətlə birləşdirin.






# 2. MUSİQİLİ DİYAR




"Gözəl Vətən"

*Musiqisi* Oqtay Zülfüqarovun,
*sözləri* Teymur Elçinindir.

**T 1** Şəkilləri "Gözəl Vətən" mahnısının hissələri ilə uyğunlaşdırın və onları kiçik dairələrdə ardıcıl nömrələyin.




"Uzundərə"
Azərbaycan
xalq rəqsi

**T2** Şəkildə təsvir olunmuş əl hərəkətlərini və sxemdə verilmiş Azərbaycan rəqs yerişini icra edin.

## Azərbaycan rəqs yerişinin sxemi




***Rəqs*** – musiqiyə uyğun ardıcıl rəqs hərəkətləridir.
***Xalq rəqsi*** – müəllifi məlum olmayan rəqsdir.

# 3. MUSİQİNİN XARAKTERİ






"Gözəl Vətən"

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Teymur Elçinindir.

**Musiqidə xarakterin növləri:**



**Şən** **Ciddi** **Qəmli**

**T 1** Mahnının xarakterinə uyğun şarı seçin və rəngləyin.






“Uzundərə”
Azərbaycan
xalq rəqsi

**Azərbaycan rəqslərində qızların əl hərəkəti sxemi**




T2 Rəqsi əl çalmaqla müşayiət edin.

T3 Ağ şarı “Uzundərə” rəqsinin xarakterinə uyğun rəngləyin.

# 4. MARŞ MUSİQİSİ




"Marş" *Musiqisi* Üzeyir Hacıbəylinindir.

1 "Marş" əsərinin musiqisinə uyğun addımlayın.



***Marş*** – addımlamağa uyğun gələn musiqi əsəridir.




"Nağıl-nəğmə"

*Musiqisi* Asya Sultanovanın, *sözləri* Teymur Elçinindir.

**T2** İfa zamanı mahnının sözlərini mimika və hərəkətlərlə təsvir edin.

**T3** Səsləndirilən marş və mahnının müəlliflərinin portretlərini aşağıdakı kiçik dairələrdə işarələyin.





# 5. TIQ-TIQ XANIMIN RƏQSİ




**"Nəlbəki" Azərbaycan xalq rəqsi**

Rəqs elementlərini icra edin.

**Rəqs elementləri sxemi**








**“Nağıl-nəğmə”**

*Musiqisi* Asya Sultanovanın,
*sözləri* Teymur Elçinindir.

T2 İfa qaydalarına riayət etməklə mahnını oxuyun və səhnələşdirin.

# 6. MAHNI, MARŞ, RƏQS










"Nağıl-nəğmə", "Marş", "Nəlbəki"

1 Musiqi əsərlərinin şərti şəkilləri ilə uyğun gələn musiqi növlərini (janrlarını) xətlə birləşdirin.

***Mahnı, marş və rəqs*** – musiqinin üç əsas növüdür (janrıdır).




**"Nağıl-nəğmə"**

*Musiqisi* Asya Sultanovanın, *sözləri* Teymur Elçinindir.



**"Nəlbəki" Azərbaycan xalq rəqsi**

T2 "Nağıl nəğmə", "Marş" və "Nəlbəki" musiqi əsərlərini növünə (janrına) görə müqayisə edin.

# 7. DOĞMA YURDUMUZUN MUSİQİSİ



**“Bayrağım”**

*Musiqisi* Səid Rüstəmovun, *sözləri* Cavad Cavadlınındır.

1 İfa qaydalarına riayət etməklə mahnını oxuyun.

**Azərbaycan Respublikasının Dövlət Himni**

*Musiqisi* Üzeyir Hacıbəylinin, *sözləri* Əhməd Cavadındır.

2 Azərbaycan Respublikasının Dövlət Himnini və “Bayrağım” mahnısını xarakterinə görə müqayisə edin.




**T3** Kartlardakı təsvirlərə görə musiqi əsərinin adını müəyyənləşdirin və ondan bir parça ifa edin.

# 8. AZƏRBAYCAN RƏQSLƏRİ






**"Nəlbəki" Azərbaycan xalq rəqsi**



Ağ şarı "Nəlbəki" rəqsinin xarakterinə uyğun rəngləyin.






**"Qaytağı" Azərbaycan xalq rəqsi**

**T2** Ağ şarı "Qaytağı" rəqsinin xarakterinə uyğun rəngləyin.

**Rəqs elementləri sxemi**




**T3** Rəqs elementlərini icra edin (oğlanlar) və musiqiyə uyğun əl çalın (qızlar).

# 9. MUSİQİLİ OYUNLAR




Kubdakı şəkillərə görə mahnının, yaxud rəqsin adını, xarakterini müəyyənləşdirin və ifa edin.


Öyrəndiyimiz bütün mahnı və rəqsləri ifa edəcəyik.

II
bölmə

# 10. SEHRLİ MELODİYA




"Sayıram onacan"

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Teymur Elçinindir.

T1 İfa qaydalarına riayət etməklə mahnını oxuyun.

***Melodiya*** – əsərdəki fikir və xarakterin musiqi səsləri ilə ifadəsidir.





"Brilyant" Azərbaycan xalq rəqsi



Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.

Rəqs elementləri sxemi



# 11. MUSİQİ ƏLİFBASI




**T 1** Notların adlarını sadalayın.

**"Sayıram onacan"**

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Teymur Elçinindir.

**T 2** Mahnının sözlərini əl hərəkətləri ilə təsvir edin.






**"Brilyant" Azərbaycan xalq rəqsi**

T3 Rəqsin əl hərəkətlərini və Azərbaycan rəqs yerişini icra edin.

# 12. MAHNI DEYƏK, RƏQS EDƏK




**T1** Şəkildəki notları verilmiş ardıcıllıqla oxuyun.

"Bax belə!"

*Musiqisi* Oqtay Zülfüqarovun,
*sözləri* Ramiz Heydərindir.

**T2** İfa qaydalarına riayət edərək mahnının birinci hissəsini oxuyun.




 "Yallı" Azərbaycan xalq rəqsi

T 3 Rəqs elementlərini ardıcıllıqla icra edin.

**Rəqs elementləri sxemi**



# 13. MUSİQİ NƏRDİVANI




**T1** Şəkildəki notları kiçik dairələrdə düzgün ardıcıllıqla nömrələyin.

**"Bax belə!"**

*Musiqisi* Oqtay Zülfüqarovun,
*sözləri* Ramiz Heydərindir.

**T2** Mahnının sözlərini əl hərəkətləri ilə təsvir edin.






**"Yallı" Azərbaycan xalq rəqsi**

T3 Rəqsin elementlərini sxemə uyğun yerinə yetirin.

**"Yallı" rəqsində düzülüş sxemi**



# 14. BAYRAM ŞƏNLİYİ




**Azərbaycan Respublikasının Dövlət Himni**

*Musiqisi* Üzeyir Hacıbəylinin, *sözləri* Əhməd Cavadındır.

T1 İfa qaydalarına riayət edərək himni oxuyun.




Əvvəlki dərslərdə öyrənilmiş musiqi əsərlərini xarakterlərinə uyğun ifa edin.

**"Yallı" Azərbaycan xalq rəqsi**

# 15. ZƏRB MUSİQİ ALƏTLƏRİ




***Ritm*** – musiqidə müxtəlif və eyni vurğuların növbələşməsidir.
***Zərb musiqi aləti*** – zərbə vurmaqla səs çıxaran musiqi alətidir.
***Bənd və nəqərat*** – mahnının hissələridir.

"Qartopu"

*Musiqisi* Səid Rüstəmovun,
*sözləri* Mirmehdi Seyidzadənindir.

1. Mahnının birinci bənd və nəqəratının ritmini tutun.






"Köçəri" Azərbaycan xalq rəqsi

Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.

Rəqs elementləri sxemi



# 16. RİTMİK VURĞULAR




**"Qartopu"**

*Musiqisi* Səid Rüstəmovun,
*sözləri* Mirmehdi Seyidzadənindir.

**"Qartopu" mahnısının quruluş sxemi**

| Birinci bənd | Nəqərat | İkinci bənd | Nəqərat |
|---|---|---|---|

**T 1** Mahnını ifadəli oxuyun və əl çalmaqla nəqəratının ritmini tutun.

**T 2** Bəstəkarların portretləri ilə mahnıların şərti şəkillərini uyğunlaşdırın və xətlə birləşdirin.






**“Köçəri” Azərbaycan xalq rəqsi**

**T3** Verilmiş zərb musiqi alətləri ilə “Köçəri” rəqsinin cədvələ uyğun ritmini göstərin.

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|---|
| Dəfə vurmaq | | |  |  | | |  |  |
| Nağaraya vurmaq |  |  | | |  |  | | |
| Zəngi silkələmək | | |  |  | | |  |  |
| Şaxşaxı silkələmək |  | |  | |  | |  | |

# 17. RİTMİN NÖVLƏRİ




**"Musiqi ağacı"nda şərti şəkilləri verilmiş musiqi əsərləri**

Müəyyən olunmuş müşayiət növünə görə səslənən musiqi nümunələrinin ritmini tutun.






“Gözəl Vətən” və “Bayrağım”

Mahnıları xorla oxuyarkən ifa qaydalarına riayət edin.

IV bölmə

# 18. QONAQPƏRVƏR DOSTLAR




**T 1** Müəllimin göstərişi ilə mahnının bir parçasını "la" hecası ilə oxuyun.

**!** ***Nəqəratı olmayan mahnılar*** – ancaq bəndləri olan mahnılardır.

**"Qonaqlıq" mahnısının quruluş sxemi**

| Birinci bənd | İkinci bənd | Üçüncü bənd |
|---|---|---|

"Qonaqlıq"

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Xanımana Əlibəylinindir.



Şəkilləri "Qonaqlıq" mahnısının bəndləri ilə uyğunlaşdırın və onları ardıcıl nömrələyin.

Mahnını ifadəli oxuyun və səhnələşdirin.



# 19. ZİL VƏ BƏM SƏSLƏR




**!** ***Zil və bəm səslər*** – musiqidə yüksəkliyi göstərən səslərdir.

**T 1** Notları adları ilə oxuyun və melodiyanı əl hərəkətləri ilə sxemə görə təsvir edin.




"Qonaqlıq"

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Xanımana Əlibəylinindir.






"Cəngi" Azərbaycan xalq rəqsi



Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.



# 20. QƏHRƏMANLIQ NƏĞMƏSİ




**T1** Şəkillərdəki hadisələrin sürətini zərb musiqi alətləri ilə təsvir edin.



**!** ***Temp*** – musiqinin ifa sürətidir.

*Tempin növləri*






**"Cəngi" Azərbaycan xalq rəqsi**

**T2** Rəqsi xarakter və tempinə uyğun ifa edin.




**"Əzizsən, Vətən!"**

*Musiqisi* Oqtay Zülfüqarovun,
*sözləri* Hikmət Ziyanındır.

**T 3** İfa qaydalarına riayət edərək mahnının birinci bənd və nəqəratını oxuyun və cədvələ uyğun ritmini tutun.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
|  |  |  |  |  |  |  |  |

# 21. ƏZİZİM VƏTƏN!




"Əzizsən, Vətən!"

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Hikmət Ziyanındır.

1 Mahnını ifadəli oxuyun və əl çalmaqla nəqəratın ritmini tutun.

***Giriş*** – mahnının bənd və nəqəratından əvvəl səslənən musiqidir.

**"Əzizsən, Vətən!" mahnısının quruluş sxemi**





“Əzizsən, Vətən!”

Musiqinin dəyişən tempinə uyğun dairədə hərəkət edin.



# 22. GƏL, GƏL, A YAZ GÜNLƏRİ!




**"Gəl, gəl, a yaz günləri!"**

*Musiqisi* Ağabacı Rzayevanın, *sözləri* Mirzə Ələkbər Sabirindir.

Mahnını ifadəli oxuyun və ritminə uyğun əl çalın.






"Novruzu"
Azərbaycan xalq rəqsi

Rəqsin elementlərini ardıcıllıqla yerinə yetirin.

**Rəqs elementləri sxemi**



# 23. ÇAL, OYNA!




"Novruzu" Azərbaycan xalq rəqsi

Rəqsi xarakter və tempinə uyğun ifa edin.

"Gəl, gəl, a yaz günləri!"

*Musiqisi* Ağabacı Rzayevanın, *sözləri* Mirzə Ələkbər Sabirindir.




**T2** Mahnını cədvələ uyğun müşayiət edin.

| | 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 | 12 |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dəfə vurmaq | |  | |  | |  | |  | |  | |  |
| Əl çalmaq |  | |  | |  | |  | |  | |  | |
| Zəngi silkələmək | |  | |  | |  | |  | |  | |  |
| Çırtma çalmaq |  | |  | |  | |  | |  | |  | |
| Şaxşaxı silkələmək | |  | |  | |  | |  | |  | |  |

# 24. NOVRUZ XONÇASI




T 1 Şərti şəklə görə musiqi əsərinin adını müəyyənləşdirib onu ifa edin. Həmin əsəri zərb musiqi alətləri ilə (və ya əl çalmaqla) müşayiət edin.



1



2



3






4



5



6

V bölmə

# 25. SÜLH VƏ MÜBARİZLİK




"Göyərçinim"

*Musiqisi* Ağabacı Rzayevanın, *sözləri* Mirmehdi Seyidzadənindir.

**"Göyərçinim" mahnısının bəndinin sxemi**




T 1 "Göyərçinim" mahnısının birinci bəndini "la" hecası ilə oxuyun və sxemə uyğun əl çalın.

***Qısa səs*** – qısa səslənən səsdir.
***Uzun səs*** – daha çox uzanan səsdir.
***Fasilə*** – ifa zamanı müəyyən müddətə səslənmənin dayandırılmasıdır.




**"Cəngi"** *Musiqisi* Üzeyir Hacıbəylinindir.

T2 "Cəngi" əsərinə uyğun olan şəkli kiçik dairədə işarələyin.


1


2


3


4

# 26. SÜLHÜN CARÇILARI







! ***Metallofon*** **–** pillələri metaldan olan zərb alətidir.

**"Beşik nəğməsi"**

*Musiqisi* Üzeyir Hacıbəylinindir.

**T 1** "Beşik nəğməsi" əsərinin xarakterinə uyğun simanı müəyyən edib rəngləyin.



**T 2** Metallofonun 1-ci və 5-ci pillələrində çalmaqla "Beşik nəğməsi"ni müşayiət edin.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Metallofonun qeyd olunan pillələrinə vurmaq | 1 | 5 | 1 | 5 | 1 | 5 | 1 | 5 |






**"Göyərçinim"**

*Musiqisi* Ağabacı Rzayevanın,
*sözləri* Mirmehdi Seyidzadənindir.

**T3** Mahnını oxuyarkən sxemə uyğun dirijorluq edin.

**"Göyərçinim" mahnısının quruluş sxemi**




**Dirijorluq sxemi**






# 27. NƏĞMƏLİ BAHAR




"Uçun, quşlar!"

"Uçun, quşlar!", "Göyərçinim",
"Əzizsən, Vətən!"

*Musiqisi* Səid Rüstəmovun,
*sözləri* Mirmehdi Seyidzadənindir.

**"Uçun, quşlar!" mahnısının quruluş sxemi**



Giriş | Birinci bənd | İkinci bənd | Üçüncü bənd

**T 1** Səslənən mahnıların ardıcıllığına görə bəstəkarlarını müəyyən edib şəkillərini nömrələyin.

  






"Azərbaycan"
Azərbaycan xalq rəqsi

**T 2** Rəqsi xarakter və tempinə uyğun ardıcıllıqla ifa edin.

**Rəqs elementləri sxemi**



1 2 3 4 5

# 28. GÖZƏL MƏKAN, AZƏRBAYCAN!




"Uçun, quşlar!"

*Musiqisi* Səid Rüstəmovun,
*sözləri* Mirmehdi Seyidzadənindir.

"Uçun, quşlar!", "Qonaqlıq", "Göyərçinim", "Əzizsən, Vətən!"

T 1 Şərti şəkillərə görə nəqəratı olan mahnıların çırtma çalmaqla, nəqəratsız mahnıların isə əl çalmaqla ritmini tutun.





“Azərbaycan” Azərbaycan xalq rəqsi

**T 2** Rəqsi cədvələ uyğun əl çalmaqla müşayiət edin.

| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 | 8 |
|---|---|---|---|---|---|---|---|
|  | |  | |  | |  | |

} 2 dəfə

# 29. GÜLMƏLİ NAĞIL




**"Çəkicim, vur!"**

*Musiqisi* Asya Sultanovanın,
*sözləri* Teymur Elçinindir.




**T 1** Mahnını oxuyaraq onu metallofonda cədvələ uyğun müşayiət edin.

| | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|
| Metallofonun qeyd olunan pillələrinə vurmaq | 5 | 5 | 5 | 3 | 2 | 2 | 1 | 1 |




“Gülməli nağıl”

*Musiqisi* Oqtay Zülfüqarovun,
*sözləri* Teymur Elçinindir.

2 “Gülməli nağıl” mahnısını səhnələşdirin.





# 30. HƏR BİRİMİZ BİR ÇİÇƏK




**"Bənövşə"** *Musiqisi* Səid Rüstəmovun, *sözləri* Abdulla Şaiqindir.

**T 1** Mahnının birinci bəndini və nəqəratını ifadəli oxuyarkən sxemə uyğun dirijorluq edin (bəndini bir əllə, nəqəratını isə iki əllə).







"Qızılgül"
Azərbaycan xalq rəqsi



Rəqsi xarakter və tempinə uyğun ardıcıllıqla ifa edin.

**Rəqs elementləri sxemi**



# 31. GÜLLƏRİN RƏQSİ




"Bənövşə" *Musiqisi* Səid Rüstəmovun, *sözləri* Abdulla Şaiqindir.

1 Mahnını oxuyaraq cədvələ uyğun ritmini tutun.

Bəndin müşayiət cədvəli

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Əl çalmaq | | | | | | | | | | | | | | | | |
| Çırtma çalmaq | | | | | | | | | | | | | | | | |

Nəqəratın müşayiət cədvəli

| | | | | | | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Dəfə vurmaq | | | | | | | | | | | | | | | | |
| Şaxşaxı silkələmək | | | | | | | | | | | | | | | | |




**"Qızılgül" Azərbaycan xalq rəqsi**

Rəqsi temp və ritminə uyğun cütlərlə ifa edin.

# 32. BAYRAM GÜNÜ




**1** Musiqi əsərlərinin şərti şəkilləri ilə uyğun gələn musiqi növlərini (janrlarını) xətlə birləşdirin.

**Azərbaycan Respublikasının Dövlət Himni, “Gözəl Vətən”, “Bayrağım”, “Əzizsən, Vətən!”**

**“Marş”** *Musiqisi* Üzeyir Hacıbəylinindir.



**“Azərbaycan” Azərbaycan xalq rəqsi**

**2** Musiqi ağacında şərti şəkilləri verilmiş musiqi əsərlərinin xarakteri haqqında fikirlərinizi söyləyin.

# 33. UŞAQLARIN NƏĞMƏLİ DÜNYASI




"Əzizsən, Vətən!"

*Musiqisi* Oqtay Zülfüqarovun, *sözləri* Hikmət Ziyanındır.

**T1** Mahnını oxuyarkən onu zərb musiqi alətləri ilə müşayiət edin.

**!** ***Afişa*** – konsert haqqında yazılı elandır.
***Konsert*** – musiqi tədbiridir.

**T2** Afişa tərtib etmək üçün 2 mahnı və 2 rəqsin adını yazın.



"Yallı" Azərbaycan xalq rəqsi

## AFİŞA

**Mahnı**

**1.** ______________________

**2.** ______________________

**Rəqs**

**1.** ______________________

**2.** ______________________

# 34. MUSİQİ ÇƏLƏNGİ



# Azərbaycan Respublikasının Dövlət Himni



*Musiqisi*
***Üzeyir Hacıbəyli***



*Sözləri*
***Əhməd Cavad***



Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə,
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

# Gözəl Vətən





*Musiqisi*
***Oqtay Zülfüqarov***

*Sözləri*
***Teymur Elçin***



***Birinci bənd***

Bizim Vətən nəğməmiz
Uzaqlara yayılsın.
Səsimizdən hər tərəf
Yuxusundan ayılsın.

***Nəqərat:***

Gözəl Vətən, can Vətən,
Bizə mehriban Vətən. } *2 dəfə*

***İkinci bənd***

Yayda başı qar olar
Papağı şiş dağların.
Verər bizə çoxlu bar
Sənin geniş bağların.

***Nəqərat:***

Gözəl Vətən, can Vətən,
Bizə mehriban Vətən. } *2 dəfə*

***Üçüncü bənd***

Sən xoşbəxt böyüdürsən
Bizi hər gün, hər saat.
Göylərə uçaq deyə,
Bizə verirsən qanad.

***Nəqərat:***

Gözəl Vətən, can Vətən,
Hər gün ucalan Vətən. } *2 dəfə*

# Nağıl-nəğmə





*Musiqisi*
***Asya Sultanova***

*Sözləri*
***Teymur Elçin***



***Birinci bənd***

Div axtardı hər yanı,
Tapmadı o, Cırtdanı.
Ağacda gördü birdən,
Çağırdı onu yerdən:

– Düş, – dedi, – yemərəm, düş. } *4 dəfə*

***İkinci bənd***

Cırtdan dedi: – Aş gətir,
Üstündə lavaş gətir.
Yeyim, sonra tut məni,
İstəsən, lap ud məni.

– Tut, – dedi, – Cırtdanı tut! } *4 dəfə*

***Üçüncü bənd***

Div getdi dəyirmana,
Aş gətirsin Cırtdana.
Cırtdan tez qaçdı evə,
Belə oxudu divə:

– Get, – dedi, – aldatdım, get! } *4 dəfə*
Nağıl qurtardı. } *2 dəfə*

# Bayrağım



Musiqisi
*Səid Rüstəmov*



Sözləri
*Cavad Cavadlı*



*Birinci bənd*

Dağlarda çən görmüşəm,
Baharı şən görmüşəm, } *2 dəfə*
Vətəni gen görmüşəm
Bayrağıma baxanda! } *2 dəfə*

*İkinci bənd*

Arzusu, eşqi sönməz,
Yüksələn bayraq enməz. } *2 dəfə*
Oluram mətin, dönməz
Bayrağıma baxanda! } *2 dəfə*

# Sayıram onacan



Musiqisi
*Oqtay Zülfüqarov*



Sözləri
*Teymur Elçin*



*Birinci bənd*

Mən sayıram onacan,
Gəl qulaq as, anacan! } *2 dəfə*
Bax bir, iki bizimki,
Üç, dörd olsun sizinki.
Beş də bizə gəlcək
Geysin təzə əlcək.

*İkinci bənd*

Ana, getmə heç yana,
Az qalıb, çatım ona. } *2 dəfə*
Altı, yeddi bizimki,
Səkkiz, doqquz sizinki.
Gələndə bizə on,
Geysin qırmızı don.

# Bax belə!



*Musiqisi*
***Oqtay Zülfüqarov***



*Sözləri*
***Ramiz Heydər***



***Birinci bənd***

Gəlin, baxın, uşaqlar,
Nə gözəldir yolkamız.
Ürəklərdə sevinc var,
Deyək, gülək hamımız.

***Nəqarət:***

Gəlin verək əl-ələ,
Bax belə, hey, bax belə!
Mahnı deyək, rəqs edək,
Bax belə, hey, bax belə! } *2 dəfə*

***İkinci bənd***

Kənarda dayanmasın
Qoy balaca uşaqlar.
Dəstəmizə qoşulsun
Qoy onlar qatar-qatar.

***Nəqarət:***

Gəlin verək əl-ələ,
Bax belə, hey, bax belə!
Mahnı deyək, rəqs edək,
Bax belə, hey, bax belə! } *2 dəfə*

# Qartopu



*Musiqisi*
***Səid Rüstəmov***



*Sözləri*
***Mirmehdi Seyidzadə***



***Birinci bənd***

Dağlar qoyub ağ papaq,
Yerlər olub ağappaq.
Ağ don geyib düzənlər,
Qara bax, a, qara bax!

***Nəqarət:***

Hamımızın var topu,
Atsın uşaqlar topu. } *2 dəfə*
Gəlin bu meydançada
Biz oynayaq qartopu. } *2 dəfə*

***İkinci bənd***

Doğubdur göydə ulduz,
Çaylar bağlayıbdır buz.
Bahar kimi qışda da
Səfalıdır yurdumuz.

***Nəqarət:***

Hamımızın var topu,
Atsın uşaqlar topu. } *2 dəfə*
Gəlin bu meydançada
Biz oynayaq qartopu. } *2 dəfə*

# Qonaqlıq



Musiqisi
**Oqtay Zülfüqarov**



Sözləri
**Xanımana Əlibəyli**



*Birinci bənd*

Yığışdı bizim evə
Dovşan, keçi, qaz, dəvə. } *2 dəfə*
Qızıl xoruz çaldı saz,
Nəğmə oxudu Naznaz. } *2 dəfə*

*İkinci bənd*

Gətirdim iki tava
Şəkərbura, paxlava. } *2 dəfə*
Yeyin, oyuncaqlarım,
Ay əziz qonaqlarım. } *2 dəfə*

*Üçüncü bənd*

Axşamacan qaldılar,
Oynadılar, çaldılar. } *2 dəfə*
Çox sevinə-sevinə
Hərə getdi evinə. } *2 dəfə*

# Bənövşə



Musiqisi
**Səid Rüstəmov**



Sözləri
**Abdulla Şaiq**



*Birinci bənd*

Bahar oldu açaram,
Qar, borandan qaçaram.
Başqa güllər açanda,
Mən quş olub uçaram. } *2 dəfə*

*Nəqərat:*

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə.
Məni qızlar, oğlanlar
Dərib taxarlar döşə. } *2 dəfə*

*İkinci bənd*

Məni dondurur ayaz,
Yaşayıram bircə yaz.
Rəngim, ətrim gözəldir,
Əl vurmayın, ömrüm az. } *2 dəfə*

*Nəqərat:*

Bənövşəyəm, bənövşə,
Düşmüşəm dilə-dişə.
Məni qızlar, oğlanlar
Dərib taxarlar döşə. } *2 dəfə*

# Gəl, gəl, a yaz günləri!



*Musiqisi*
***Ağabacı Rzayeva***



*Sözləri*
***Mirzə Ələkbər Sabir***



Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri! } *2 dəfə*
Dağda ərit qarları,
Bağda ərit qarları.
Çaylar daşıb sel olsun,
Taxıllar tel-tel olsun.
Ağaclar açsın çiçək,
Yarpağı ləçək-ləçək...
Gəl, gəl, a yaz günləri,
İlin əziz günləri!

# Göyərçinim



*Musiqisi*
***Ağabacı Rzayeva***



*Sözləri*
***Mirmehdi Seyidzadə***



***Birinci bənd***

Göyərçinim sevimli,
Göyərçinim dümağdır.
Göyərçinim səmada
Hələ çox uçacaqdır.

***Nəqərat:***

Tükləri pambıq kimi,
Ay yumşaq göyərçinim.
Yaşa azad ölkədə,
Mənim ağ göyərçinim. } *2 dəfə*

***İkinci bənd***

Sevimli nəğməsinin
İlk sözü qurtuluşdur.
Sülhün qardaşı, dostu
Bəslədiyim bu quşdur.

***Nəqərat:***

Tükləri pambıq kimi,
Ay yumşaq göyərçinim.
Yaşa azad ölkədə,
Mənim ağ göyərçinim. } *2 dəfə*

# Çəkicim, vur!



Musiqisi
*Asya Sultanova*



Sözləri
*Teymur Elçin*



*Birinci bənd*

Çəkicim, vur – tıq, tıq, tıq,
Ev tikirik biz.
Çəkicim, vur – tıq, tıq, tıq,
Dayanma işsiz.

*Nəqərat:*

Külək əsir, soyuqdur,
Məstanın evi yoxdur.

*İkinci bənd*

Çəkicim, vur – tıq, tıq, tıq,
Vur mismarı bərk.
Çəkicim, vur – tıq, tıq, tıq,
Gərək tələsək.

*Nəqərat:*

Külək əsir, soyuqdur,
Məstanın evi yoxdur.

Tıq, tıq, tıq, tıq,
Tıq, tıq, tıq, tıq, tıq.

# Uçun, quşlar!



Musiqisi
*Səid Rüstəmov*



Sözləri
*Mirmehdi Seyidzadə*



*Birinci bənd*

Uçun, quşlar, bizim bağda,
Cəh-cəh vurub oxumağa. } *2 dəfə*
Sıx yarpaqlı ağaclarda
Qonun yaşıl bir budağa. } *2 dəfə*

*İkinci bənd*

Bənövşələr pıçıldaşır,
Sizə nəğmə çox yaraşır. } *2 dəfə*
Quşlar nəğmə oxuyanda
Sevincimiz aşır-daşır. } *2 dəfə*

*Üçüncü bənd*

Çiçəklənib gülöyşə nar,
Çiçəklənib şaftalılar. } *2 dəfə*
Uçun, quşlar, bizim bağda,
Nəğmə deyin, gəlib bahar. } *2 dəfə*

# Gülməli nağıl





*Musiqisi*
***Oqtay Zülfüqarov***

*Sözləri*
***Teymur Elçin***

Çıxdı bir siçan yuvadan, yuvadan.
İki ac pişik gördü siçanı, qorxub qaçanı.
Üç it hürüşdü: Hav! Hav!
Dalınca düşdü: Hav! Hav!
Siçan sürüşdü, yaman sürüşdü,
yaman sürüşdü.
Yazıq qorxudan tələyə düşdü...



# Əzizsən, Vətən!





*Musiqisi*
***Oqtay Zülfüqarov***

*Sözləri*
***Hikmət Ziya***

*Birinci bənd*
Səni gördük göz açıb, göz açıb,
Şirin-şirin söz açıb, söz açıb.
Bizə balam söylədin, söylədin,
Bizi xoşbəxt elədin, elədin.

*Nəqərat:*
Sən nə qədər əzizsən,
Doğma, sevimli Vətən! } *2 dəfə*
Xoş baharsan, xoş bahar,
Övladların bəxtiyar. } *2 dəfə*

*İkinci bənd*
Ən mehriban atasan, atasan,
Günəş kimi yanırsan, yanırsan.
Qoynunda boy atırıq, atırıq,
Hər arzuya çatırıq, çatırıq.

*Nəqərat:*
Sən nə qədər əzizsən,
Doğma, sevimli Vətən! } *2 dəfə*
Xoş baharsan, xoş bahar,
Övladların bəxtiyar. } *2 dəfə*

*Üçüncü bənd*
Bir gün yaşa dolarıq, dolarıq,
Yaradarıq, quraraq, quraraq.
Daha gözəl olarsan, olarsan,
Bizdən razı qalarsan, qalarsan.

*Nəqərat:*
Sən nə qədər əzizsən,
Doğma, sevimli Vətən! } *2 dəfə*
Xoş baharsan, xoş bahar,
Övladların bəxtiyar. } *2 dəfə*



## Marş



## Cəngi





*Musiqisi*
***Üzeyir Hacıbəyli***

## Beşik nəğməsi



# *Azərbaycan xalq rəqsləri*

**"Azərbaycan"**



**"Nəlbəki"**



**"Uzundərə"**



**"Novruzu"**



**"Brilyant"**



**"Köçəri"**



**"Yallı"**



**"Qaytağı"**



**"Qızılgül"**



**"Cəngi"**



## Buraxılış məlumatı

**MUSİQİ 1**

*Ümumi təhsil müəssisələrinin 1-ci sinifləri üçün*
*Musiqi fənni üzrə*
**DƏRSLİK**

**Tərtibçi heyət:**

Müəlliflər: **Nərgiz Rəcəbova**
**Şəhla Quliyeva**
**Zemfira Əliyeva**

Rəssamlar: **Mərziyə Tağıyeva**
**Kamila Hüseynzadə**

Buraxılışa məsul **Rafiq Kazımov**
Dizaynerlər: **Nurlan Nəhmətov**
**Murad Əliyev**
Səhifələyici **Aytən Alışova**
Redaktor **Gültəkin Cəfərova**
Korrektor **Nübar Qarayeva**
Texniki redaktor **Sevinc Yusifova**
Baş redaktor **Samirə Bektaşi**
Texniki direktor **Allahverdi Kərimov**
Nəşriyyat direktoru **Sevil İsmayılova**



**© Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin qrif nömrəsi:**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.



Hesab-nəşriyyat həcmi 7,2. Fiziki çap vərəqi 10. Formatı 70x100$^{1}/_{8}$.
Kəsimdən sonra ölçüsü: 195x275. Səhifə sayı 80.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş . Tiraj . Pulsuz. Bakı – 2024

**Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix:**

Çap məhsulunu nəşr edən:
**“Şərq-Qərb” ASC**
**(Bakı, AZ1143, Hüseyn Cavid pr., 111)**

Çap məhsulunu istehsal edən:

Pulsuz

## Əziz məktəbli!

**Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.**

**O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.**

**İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.**

**Sizə təhsildə uğurlar arzulayırıq!**

